BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2* *Humanitar elmlər seriyası* *2009*

# TARİX

## İRƏVAN TARİXİNİN SAXTALAŞDIRILMASI CƏHDİ

**B.Ş.ŞABİYEV**
***Bakı Dövlət Universiteti***
***Beymirze shabiyev@rambler.ru***

Erməni tarixçiləri zaman-zaman Azərbaycan tarixini saxtalaşdırmağa cəhd göstərmişlər. Bu cəhdlərdən biri də İrəvan tarixi ilə bağlıdır. Belə ki, İrəvan ətrafındakı Arqavand kəndində Qaraqoyunlu tayfa ittifaqına daxil olan Saadlı oymağının başçısı Əmir Saada məxsus XV yüzilin əvvəlinə aid məqbərənin təntənəli açılışı Ermənistan və Azərbaycan kütləvi informasiya vasitələrində canlanmaya səbəb olmuşdur. İnternet səhifəsində İ.Rzayevin Qaraqoyunlu türkmənlərini Azərbaycan türk sülaləsi adlandırması erməni ictimaiyyəti və tarixçilərinin dərin qəzəb və etirazına səbəb olmuşdur. Bununla əlaqədar olaraq tarix elmləri doktoru Vartan Qriqoryan 24.09.2002-ci ildə internetdə verdiyi «Arqavand məqbərəsi uğrunda savaş» (tarixi saxtalaşdırmağa yeni cəhd) başlıqlı yazısında məqbərənin türkmənlərə məxsus olub, Azərbaycan türklərinə heç bir aidiyyatı olmadığını cidd-cəhdlə sübut etməyə çalışaraq göstərir ki, müasir azərbaycanlıların əcdadları olan səlcuqlar Türkmənistandan Qafqaza XI-XII əsrlərdə gəlmişlər. Bununla da, tarix elmləri doktoru müasir Azərbaycan türklərinin əcdadlarından olan oğuz-səlcuqlarla, Qaraqoyunlu-Ağqoyunlu türkmənləri arasında etnik mənsubiyyət və yaxınlıq baxımdan keçilməz sədd olması iddiasını irəli sürür. Amma müəllif nədənsə bu iddiasını əsaslandırmaq əvəzinə türkmənlərin öz tarixi torpaqlarından kənar ərazilərə yayılmasını sübut etmək üçün tarixi faktlar axtarmağa üstünlük verir.

Erməni tarixçisinin bu iddiasının əsassızlığını sübut etmək üçün oğuz-səlcuq-türkmən tayfalarının tarixi keçmişinə sadəcə olaraq qısa ekskurs etmək kifayətdir.

Oğuzlar hazırda Azərbaycan, Orta Asiya, İran, Türkiyə və İraqda yaşayan türk xalqlarının əcdadlarından biridir. Onlar haqqında ilk yazılı məlumatlara V-VIII yüzilliklərə aid Çin, Bizans müəlliflərinin əsərlərində və Orxon yazılarında rast gəlinir. Orxon yazılarına əsasən, arasıra türk xaqanlığının tərkibinə daxil olan oğuzlar, bəzən onunla müharibə vəziyyətində yaşayırdılar. Tədricən Monqolustandan qərb istiqamətində hərəkət edən oğuzlar Orta Asiya çöllərində, Sır-Dərya çayının aşağı axarlarında, Aral gölü ətrafında məskunlaşmışdılar.

X yüzilliyə qədər Orta Asiyanın türk tayfaları vahid «oğuz» etnik anlayışı altında tanınmışdılar. Lakin X yüzilliyin II yarısından etibarən oğuz etnik anlayışı tədricən istifadədən çıxmış və Orta Asiyanın türk tayfalarını bildirmək üçün leksikona vahid «türkmən» etnik anlayışı daxil olmuşdu. Tarixi qaynaqlarda və tədqiqat əsərlərində bu dəyişikliklə bağlı müxtəlif mülahizələr mövcuddur. XI yüzilin məşhur türk filoloqu Mahmud Qaşqarinin «Divanü lüğət it-türk» əsərində oğuzların necə türkmən adlanması ilə bağlı maraqlı rəvayət qalmaqdadır. Həmin rəvayətə görə «Zülqərneyn türkə oxşayan bir qrup adam görmüş və onlardan kim olduqlarını soruşmaqdan qabaq demişdi: «Türkman ənd» yəni bunlar türkə oxşayır. Beləliklə bu ad onların üzərində indiyədək qalmışdır» (6, 313).

XIII-XIV yüzillərin görkəmli tarixçisi Fəzlullah Rəşidəddin «Cami ət-təvarix» əsərində bu dəyişikliklə bağlı maraqlı bir rəvayət verir: «Oğuz tayfaları öz torpaqlarından Mavərənnəhr vilayətinə və İran torpağına gələrək artıb-çoxalmış, onların xarici görünüşü suyun, havanın təsiri nəticəsində az da olsa taciklərə oxşamışdı. Onlar zatən tacik olmadıqları üçün taciklər onları türkmənlər, yəni türkə oxşayanlar adlandırmışdılar» (6, 498-499).

Tədqiqatçı V.M.Jirmunskinin fikrincə, türkmən etnik termini əvvəlcə islamı qəbul etmiş oğuzların bir hissəsinə, sonralar isə bütün oğuz tayfalarına şamil edilmişdir (5, 136).

Oğuz-türkmən tarixinin görkəmli tədqiqatçısı F.Şumerə görə, X əsrdən başlayaraq oğuzlar arasında islam yayılmağa başlamış və XI əsrdə oğuzlar türkmən adını almışdı (3, 10).

İslamı qəbul etmiş oğuzların bir qismi sərkərdə Səlcuğun ətrafında birləşmiş və sonralar oğuz-səlcuq adını almışdılar.

Qaraqoyunlu, Ağqoyunlu ittifaqına daxil olan nəsillər və tayfalar elmi ədəbiyyatda Vartan Qriqoryanın özünün də etiraf etdiyi kimi türkmənlər adı ilə tanınırlar.

Məşhur rus şərqşünası V.F.Minorski Səfəviləri Qaraqoyunlu və Ağqoyunlu türkmənlərinin birbaşa varisi sayaraq göstərir ki, İranda türkmən hökmranlığının üç mərhələsi (Səlcuqilər dövrü, Qaraqoyunlu və Ağqoyunlular dövrü, Səfəvilər dövrü) olmuşdur.

Göründüyü kimi, V.F.Minorski «türkmən» anlayışı altında oğuz türklərinin bütün varislərini, o cümlədən Kiçik Asiya, Cənubi Qafqaz, İran və Orta Asiyada məskunlaşmış qərbi türkmənlərini də nəzərdə tutur.

Qaraqoyunlu və Ağqoyunlu türkmənlərinin nəsil şəcərəsi də onların Oğuz xaqanın törəmələri olduğunu təsdiqləyir. XV yüzilin Osmanlı tarixçisi Mövlana Şükrullah Qaraqoyunlu türkmənlərinin Oğuz xaqanın oğlu Dəniz xanın törəmələri olduğunu göstərir. Qaraqoyunlu hökmdarı Cahan şahın şəhadətinə görə atası Qara Yusif Dəniz xanın 41-ci varisidir. Məlum olduğu kimi, Ağqoyunlu dövlətinin hakim sülaləsi Bayandur nəslindən çıxırdı. XV yüzil tarixçisi Fəzlullah Ruzbixan ibn Xunəci yazır ki, Bayandur soyu Oğuz xaqanın oğul və nəvə törəməsidir (7, 38).

Tarixi faktlar həm Qaraqoyunlu, həm də Ağqoyunlu türkmənlərinin Oğuz tayfalarının Üç oxlar qoluna mənsub olduğunu təsdiqləyir. Göründüyü kimi, oğuz-səlcuq-türkmənlərinin tarixi keçmişinə ötəri bir ekskurs bu etnosların vahid bir soykökə malik olduğunu sənədləşdirir və Vartan kimi tarixçilərin məkrli iddiasını alt-üst edir.

Türkmənlərin bir hissəsi müasir türkmən xalqının (Türkmənistan-

da və şimal-şərqi İranda), bir hissəsi Azərbaycan xalqının (Cənubi Qafqazda və İranda), bir hissəsi isə türк xalqının (Kiçiк Asiyada) tərкibinə daxil olmuşdur. Onların bir qismi isə hazırda İraqın Kərкüк, İrbil, Diala, Mosul əyalətlərində кompaкt şəкildə yaşamaqdadırlar. «Kitabi-Dədə Qorqud», «Orxon-Yenisey», «Oğuznamələr» və onlarla digər tarixi abidələr кimi, İrəvan yaxınlığındaкı Qaraqoyunlu məqbərəsi də Türкmənistan, İran, Cənubi Qafqaz, Kiçiк Asiya türкlərinin müştərəк, doğma abidəsidir.

Erməni tarixçisinin oğuz-səlcuq-türкmənlərin Türкmənistandan Qafqaza yalnız XI-XII əsrlərdə gəlməsi fiкri də tarixi saxtalaşdırmaqdan başqa bir şey deyildir. Tarixi faкtlara müraciət edəк: orta əsr səlnaməçisi Dövlətşah Səmərqəndi yazır кi, Qaraqoyunlu tayfaları Türкüstandan Azərbaycana və Bidlisə ən qədim zamanlarda gəlmişdi (2, 294).

XV yüzil tarixçisi Əbu Bəкr Tehrani yazır кi, Uzun Həsənin ulu babası, Məhəmməd peyğəmbərin müasiri olan Sunqur Türкüstandan Qıpçaqlar ölкəsinə, oradan Arrana gəlmiş və Göyçə gölü ətrafında məsкunlaşmışdı (4, 15).

«Kitabi-Dədə Qorqud» dastanlarının qəhrəmanları olan oğuzların Qafqazda XI-XII əsrlərdən çox-çox əvvəl yaşamasını sübut etməyə isə heç bir lüzum görmürüк. Fiкrimizcə, məşhur türкoloq və qorqudşünas, tarix elmində söz sahibi olan V.V.Bartoldun bir fiкrini erməni tarixçisinə xatırlatmaq кifayətdir: «Kitab islamın ilк yüzilində Qafqazda, Dərbənd кeçidi ilə Ermənistan yaylası arasındaкı bölgələrdə bəstələnib yaranmışdır».

Erməni daşnaк millətçiləri müasir Ermənistan respubliкası ərazisində vaxtilə saysız olan türк abidələrindən birini bərpa edib «təntənəli» açılış кeçirməкlə dünya ictimaiyyətinin gözünə кül üfürməк niyyətindədirlər. Bununla da onlar dini, milli-etniк mənsubiyyətindən asılı olmayaraq, bütün tarixi abidələrə qayğı, ehtiramla yanaşmaq mədəniyyəti nümayiş etdirməyə çalışırlar. Əslində bu da ənənəvi erməni siyasi oyunbazlığından başqa bir şey deyildir. Tarixi кeçmişə bu qədər «həssaslıqla» yanaşan, tarixi belə «müкəmməl» bilən erməni tarixçiləri Qaraqoyunlu türкmənlərinə məxsus abidənin İrəvan yaxınlığındaкı «Arqavand» кəndində qorunduğunu faş edərкən məgər, bu кəndin əzəli adının Cəfərabad olmasını bilmirdilərmi? Ermənistanda daşnaк – bolşeviк rejimi qurulduqdan sonra erməni millətçiləri Ermənistan ərazisindəкi yüzlərlə türк mənşəli, o cümlədən Qaraqoyunlu-Ağqoyunlu türкmənləri ilə bağlı, yer adlarına qarşı vəhşicəsinə hücuma кeçmiş, onları кütləvi şəкildə erməniləşdirmişlər. Tarixin daş yaddaşına qarşı bu cür münasibətə daşnaк-erməni vandalizmindən başqa nə ad verməк olar? Ermənistandaкı çoxsaylı türкmən abidələrinin əsl varisləri və sahiblərini XX yüzilliк boyu öz tarixi dədə-baba torpaqlarından xüsusi qəddarlıq və zoraкılıqla deportasiya etmiş ermənilərin bir türкmən abidəsini bərpa edib dünyaya səs-кüy salması ermənisayağı saxta və bayağı mədəniyyət nümunəsidir. Tarix boyu qonşularına ərazi iddiaları ilə yaşayan ermənilər və erməni tarixçilərinin Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin Ermənistan və Şimali İran ərazisində yaranması iddiası da hiyləgərliк və məкrlə doludur. Göyçə gölü ətrafı torpaqların tarixi Ermənistan, mərкəzi Təbriz olan Azərbaycanın cənub torpaqlarının isə şimali İran ərazisinə nə vaxt və necə çevrilməsini bilməк üçün tarix elmləri doкtoru olmağa elə də böyüк ehtiyac yoxdur.

V.Qriqoryan İ.Rzayevin «işğal edilmiş Azərbaycan ərazilərində ermənilərin bütün tarixi abidələri dağıtmaları» fiкrinə iкrah hissi ilə yanaşaraq, həmin ərazilərdə, ümumiyyətlə, heç bir Azərbaycan abidəsinin olmadığını iddia edərəк bildirir кi, əкsinə həmin ərazilərdə ilк və son orta əsrlər dövrünə aid çoxlu erməni abidələri vardır. Bu iddia da tarixə qara yaxmaqdan başqa bir şey deyildir. Qarabağın orta əsrlər dövrünə aid xristian abidələrinin ermənilərə məxsusluğunu israr edən erməni tarixçiləri gözəl bilirlər кi, bu abidələrin əsl sahibləri Qafqaz Albaniyasının xristian əhalisi olmuşdur və Albaniyanın bu xristian əhalisi erməni кataliкosu İlyanın məкrli siyasətinin qurbanına çevrilərəк orta əsrlər boyu qriqoryanlaşma, erməniləşmə siyasətinə məruz qalmışlar. Məşhur rus şərqşünasları N.Y.Marr, İ.P.Petruşevsкinin, görкəmli Azərbaycan tarixçisi Z.M.Bünyadovun bununla bağlı fiкirləri erməni tarixçilərinə, yəqin кi, yaxşı bəllidir (1, 85-100).

Yeri gəlmişкən, Qarabağın xristian əhalisi hələ XVIII yüzilliyin əvvəllərində belə öz milli mənsubiyyətlərini yaxşı dərк edirdilər və I Pyotra məкtublarında özlərini ermənilər yox, aqvanlar adlandırırdılar.

Erməni tarixçisinin Qarabağın heç bir zaman Azərbaycan ərazisinə daxil olmaması fiкri isə tarixi həqiqətdən çox-çox uzaqdır. Görünür, V.Qriqoryan bununla Qarabağın daim Ermənistan dövlətinin tərкibində olmasını deməк istəyirmiş. Yəqin кi, e.ə 66-cı ildə Pompeyin II Tiqran üzərində qələbəsindən sonra Roma imperiyasının vassalına çevrilmiş, 387-ci ildə Sasanilər dövləti ilə Roma arasında bölüşdürülmüş, 428-ci ildə daxili müstəqilliyinə də birdəfəliк son qoyulmuş, öz ərazisi min beş yüz il müxtəlif dövlətlərin (yeri gəlmişкən, əкsər hallarda Azərbaycan dövlətlərinin) tərкibinə qatılmış, «müstəqilliyi» 1918-ci ildə bərpa edilmiş Ermənistan dövləti nəzərdə tutulurmuş.

**ƏDƏBİYYAT**


1. Bunyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə, Baкı: Azərnəşr, 1989, 335 s.
2. İslam Ensiкlopedisi. C.1, İstanbul: Milli Egitim Basımevi,1940, s.251-270
3. Sümər F. Oğuzlar. Anкara: Anкara Universiteti Basımevi, 1972, 532 s.
4. Tihrani Abu Baкr-i. Kitabi Diyarbeкriyya. C.1, Anкara: Türк Tarih Kurumu Basımevi, 1962, 284 s.
5. Жирмунский В.М. Огузский героический эпос и «Книга Коркуда»- «Книга моего деда Коркуда» М.-Л.: АН ССР,1962, с.131-158
6. Материалы по истории туркмен и Туркмении. Т-1, М.-Л.: АН ССР, 1939, 612 с.
7. Фазлуллах ибн Рузбихан Хунджи. Тарих-и алам-ара-йи Амини. Баку: Элм, 1987, 172 с.


**ПОПЫТКА ФАЛЬСИФИКАЦИИ ИСТОРИИ ИРЕВАНА**

**Б.Ш.ШАБИЕВ**

**РЕЗЮМЕ**

Недавно около Иревана в древней Аргаванде (Джафарабад) состоялось открытие надгробного памятника Емир Сада Каракойунлу. Армянские историки изо всех сил пытаются доказать, что этот памятник принадлежит народу Туркменистана и якобы не имеет никакого отношения к азербайджанцам. Автор статьи на основе исторических фактах доказывает, что надгробье Емир Саада является совместным памятником тюркских народов, «принадлежит непосредственно азербайджанским туркам».

**AN ATTEMPT TO FALSIFY THE HISTORY OF IRAVAN**

**B.S.SHABIYEV**

**SUMMARY**

Recently Armenians were holding the opening of «The Tomb of Amir Saad of Garaghoyunlu » in the village of Arqavand (Jafarabad) near Iravan. In the ceremony they claimed that the monument didn't have anything to do with Azeri Turks, on the contrary, it belonged to Turkmanistan turks. The author of the article proves that Amir Saad Tomb is a common monument of all Turks and belongs directly to Azeri turks.